

**Mövlud Ağamməd**

## A DAĞLAR

*(Dədə Ələsgərin ruhu qarşısında baş əyirəm)*

Bahar fəsli,yaz ayları gəlməmiş,
Süsənlərin saralıbdı,a dağlar.
Varlı,kasıb dincin almır qoynunda,
Yollarını qar alıbdı,a dağlar.
***
Hanı bahar fəsli yaxşı bir çağın?
Kəsilib çeşməndən gözəl yığnağın.
Dadı yox pendirin,yağın,qaymağın,
Zənbur nədən bal alıbdı,a dağlar?
***
Qaçqın oldu,düşdü ellər aralı,
Ayrılıqdan ürəkləri yaralı.
Mənfur düşmən səndə çoxmu qalalı?
Gül-çiçəyin qaralıbdı,a dağlar.
***

Ələsgərim,yurdun viran–talandı,
Ocaqların üstə ocaq qalandı.
At oynadır ermənilər,yalandı?
Yuvalarım sar alıbdı,a dağlar.
***
Mövlud, getməz oldum doğma elimə,
Əli yetməz oldu mənim əlimə.
Necə dözüm bu nagahan “ölüm”ə,
Qəlbim ahu-zar alıbdı,a dağlar.
25.07.2014. Zərdabi.

**Mövlud Ağamməd**

*Şair, pedaqoq.*